# OCAQ RƏHMAN

Böyük bir binanın qarşısında dayandıq. Bu binada vətəndaşlarımızla görüşümüz olacaqdı. Biz bunun üçün üç adam Bonn şəhərindən Köln şəhərinə gəlmişdik. Pillələrdən yuxarı çıxmağa başlayarkən binanın böyük qapısı ağzında duran Rəhmanı görən kimi tanıdım. Doğrusu, mən onun bu görüşdə olacağını qabaqcadan bilməsəydim, çətin ki, onu tanıya bilərdim. Mən Rəhmanı bir dəfə Berlin şəhərində konsertdə görmüşdüm. O zaman o, sağlam gövdəli və xoş görünüşlü bir insan idi. Amma indi onu görərkən gözlərimə inana bilmirdim. O, dörd il qabaq gördüyüm Rəhman deyildi. Ondan qalmış uzaq bir nişanə idi! O, inanılmaz dərəcədə arıqlamışdı. Soyuq qış küləklərinin söndürüb havaya sovurduğu ocaqlar kimi ağır xəstəlik də onu talan etmişdi.
Pillələri çıxıb onunla qol-boyun olduq, öpüşüb görüşdük. Ondan başqa bir neçə vətəndaşlarımızdan da orada idilər. Amma hələ hamı gəlib çatmamışdı. Bir az keçdi və gəlməyənlər də gəldilər. Biz görüş salonuna getdik.
Görüşü aparan yurddaşlarımızdan biri sözə başladı. Bilirdik ki, biz, ölkədən eşikdə yaşayan Azərbaycan yazıçılar və sənətçilər birliyini qurmaq üçün oraya çağırılmışdıq. O, bu barədə qısa danışdıqdan sonra dedi ki, hər nədən qabaq Rəhmanın qarmanını dinləməyimiz yaxşı olardı; biz hamımız ürəkdən bunu istəyirdik.
Rəhman qarmanını qutusundan çıxarıb bağrına basdı, bircəcik balasını bağrına basan bir ana kimi. O, dedi ki, bizim üçün segah havasını çalmaq istəyir və sonra: - Bizim dərdlərimiz çox böyükdür, - dedi, - bu dərdləri dilə gətirmək üçün mən şuru da segaha qatmaq istəyirəm. O, sonra çalmağa başladı. Qarmanın şaqraq səsi, çığırmağa macal tapmış danışmaq haqqı olmayan bir insan kimi kiçik salonda gurlayırdı. O, fəğan

edirdi. O, gözyaşlarını güclə udaraq haray qoparıb dərdini dünyaya bildirmək istəyirdi.

Başımı qaldırıb Rəhmana baxdım, o, gözlərini yummuşdu. Arıq barmaqları dalğalar qoynunda çırpınan dəniz quşları tək qarmanın sədəf dillərində çırpınırdı. O, artıq amansız qış küləklərinin söndürüb havaya sovurduğu ocaq deyildi. İndi o, gur yanan, qarlı fırtınalara meydan oxuyan sönməz bir ocağa dönmüşdü.

Qarman artıq susmuşdu. Mən Rəhmana baxa-baxa düşünürdüm:

"Nə yaxşı ki, sümüyümüzə, ürəyimizə işləyən bu amansız soyuqlarda, doğma yurdlarından didərgin düşmüş biz Azərbaycan balalarının, hərdən bir qızınmağa Rəhman kimi yanar ocağı vardır."

1992. Bonn